# Xaricdə işləmiş ilk azərbaycanlı jurnalist

**Sovet jurnalistikasının Türkiyə haqqında nadir nümunələrini ortaya qoyan imzalardan biri Azad Şərifov olub. Əslində, sovet dövrü mətbuatında Türkiyə mövzusundan danışanda bu imzadan yan keçmək olmur. Cəsarətlə demək olar ki, Azərbaycan jurnalistləri sırasında Türkiyə həyatını obyektiv işıqlandıran müəlliflər arasında "İzvestiya" qəzetinin Türkiyə üzrə xüsusi müxbiri Azad Şərifov xüsusilə seçilirdi.**



## İlk qələm təcrübələri onu tanıtdı

O, Sovetlər dönəmində xaricdə işləyən ilk azərbaycanlı, həm də adı Nyu-Yorkda nəşr edilən "Kim kimdir?" beynəlxalq soraq kitabına daxil edilmiş yeganə qafqazlı jurnalist idi. 1930-cu il aprelin 7-də Bakıda, məşhur teatr xadimi Ağakərim Şərifovun ailəsində doğulmuşdu. İlk qələm təcrübələri orta məktəbdə təhsil aldığı illərə aiddir. Bu məqalələr mətbuatda o qədər maraq doğurur ki, 19 yaşında ikən "Molodyoj Azerbaydjana" qəzetində dərc edilən oçerklərinə digər nəşrlər də "müştəri" çıxır. "Fizkulturnik Azerbaydjana" qəzetinin, demək olar ki, hər sayında yazılarına yer verilir və işə dəvət olunur. Sonra "Pionerskaya pravda"nın Azərbaycan üzrə xüsusi müxbiri təyin edilir. 1956-cı ildə "Molodyoj Azerbaydjana" qəzetində şöbə müdiri, redaktor müavini işləyir. 1959-cu ildə isə bu qəzetin ilk azərbaycanlı redaktoru olur.

Çox keçmir ki, məşhur "Vokruq sveta" jurnalında baş redaktorun müavini vəzifəsinə təyin olunur. Türkiyə haqqında məqaləələri jurnalistikamızın fərqli nümunələri kimi sevilə-sevilə oxunan yazılardan olur. "Azad Şərifov" imzası "İzvestiya" qəzeti rəhbərliyinin də diqqətini cəlb edir, Türkiyə, İran və Əfqanıstan üzrə xüsusi müxbir vəzifəsinə dəvət alır.

## Ankara azərbaycanlı jurnalistin iş yeri oldu

1967-ci ilin payızında Türkiyənin Baş naziri Süleyman Dəmirəl ilk dəfə SSRİ-yə səfərə gələndə onu müşayiət edənlər sırasında "İzvestiya" qəzetinin xüsusi müxbiri Azad Şərifov da var idi. Sonralar Azad müəllim bu barədə "Zerkalo" qəzetində yazmışdı və bu yazı "525-ci qəzet"də BDU-nun professorları Şirməmməd Hüseynovun təqdimatında və Nəsir Əhmədlinin tərcüməsində dərc edilmişdi.

"İzvestiya"nın baş redaktoru Lev Tolkunov respublikamızın ovaxtkı rəhbəri Vəli Axundovun məsləhəti ilə onu qəzetin Türkiyə, İran və Əfqanıstan üzrə xüsusi müxbiri vəzifəsinə göndərir. Azad müəllim bu barədə belə yazır: Lev Tolkunov iş yerinə zəng elədi. Dedi ki, "İzvestiya"nın müxbir məntəqəsi barədə məsləhətləşmək istəyir. Bir aydan sonra... mən artıq Ankarada idim".

Bu vəzifədə o, üç il, 1969-cu ildə Azərbaycan KP MK-nın mədəniyyət şöbəsinin müdiri təyin olunana qədər işləyir. Onun Türkiyə ilə bağlı olan yazıları, təbii ki, qəzetin tələb və qaydalarına uyğunlaşdırılsa da, oradakı türksevər fəaliyyəti və həyatı da jurnalistika üçün maraq doğuran mövzulardan sayıla bilər. "Uzaq meridianlarda görüş", "Bosfor üzərində qağayılar" kitablarında toplanan yazılar "Vokruq sveta" və "İzvestiya" kimi dünyada populyarlıq qazanmış ümumittifaq nəşrlərinin dəyərli nümunələri olduğu qədər Azərbaycan jurnalistikası üçün də böyük əhəmiyyətə malikdir.

## Məhəmməd Əminin məzarını ziyarət

Azad müəllim deyirdi ki, Türkiyəyə gəldiyi ilk günlərdən jurnalist marağı onu Azərbaycan Demokratik Respublikasının qurucusu Məhəmməd Əmin Rəsulzadənin Ankaradakı qəbrini ziyarət etməyə sövq etdi. SSRİ-nin Ankaradakı səfirliyinin konsulluq şöbəsinin müdiri, həmyerlimiz Rza Məmmədovla bu mövzuda söhbəti də olmuşdu: "O, mənə diqqətlə qulaq asaraq dedi:

– Hə, o, Ankaranın "Əsri məzarlığı"nda dəfn olunub, amma biz oraya getmirik. Bilirsən, Azad, mənə çox xoşdur ki, "İzvestiya"nı burada mənim yerlim olan jurnalist təmsil edir, amma vəziyyət mürəkkəbdir. Sənin uğursuzluğun bizim ümumu uğursuzluğumuz ola bilər".

Amma Azad müəllim Məhəmməd Əminin qəbrini ziyarət edir, Səməd Ağaoğlunun (Türkiyənin tanınmış dövlət xadimi, Atatürkün dostu və onun nazirlərindən biri olmuş Əhməd bəy Ağayevin oğlu) bələdçiliyi ilə...

"Ertəsi gün Rza Məmmədov məni evlərinə kətə yeməyə dəvət etdi. Yoldaşı Sima xanımın bişirdiyi kətələr çox dadlı idi. Rza kətə yeyə-yeyə dedi:

– Deyirlər, dünən novxanılı yerlimiz Rəsulzadənin məzarını ziyarət etmisən...

Kətə boğazımda qaldı. Beynimdən bir fikir keçdi ki, yəqin səfirlik işçiləri məni güdüblərmiş. Bu fikir hələ başımda dolaşırdı ki, sakitcə dedi: "Türklər sənin maşınını qəbiristanlığın yanında görüblər. Heç olmasa, "bələdçinin" maşını ilə gedəydin".

Günlərin birində Türkiyədə nəşr olunan bir qəzetdə Rza müəllimin polkovnik mindirində, sinəsi orden-medallı, şəklini vermiş və altından da yazmışdılar: "Azəri Rza Məmmədov Rusiyanın casusudur". Həmin şəkil də Rza müəllimin Azərbaycan DTK-sının Gəncə şəhər bölməsinin rəisi işləyərkən çəkilibmiş. Türkiyə Xarici İşlər Nazirliyinin heç bir rəsmi notası və ölkəni tərk etmək tələbi olmasa da Rza Məmmədov sakitcə Bakıya döndü.

Moskva mənim çoxdan yoldaşlıq etdiyim, yüksək mədəniyyətli, savadlı, ünsiyyətcil Arif Heydərovu (sonralar Heydər Əliyevin dəvəti ilə Azərbaycan Respublikasının Daxili İşlər naziri təyin olundu) SSRİ-nin Ankaradakı səfirliyinin konsulluq şöbəsinə müdir göndərdi..."

Azad müəllim general Arif Heydərov haqında xatirələrində də bu dəyərli insan haqında böyük fəxr və qurur hissi ilə söhbət açır, hətta onun SSRİ – Türkiyə münasibətlərində böyük qalmaqallar yarada biləcək bəzi "ocaqları" necə söndürdüyündən bir şahid kimi ustalıqla danışır.

"O, təcrübəli kəşfiyyatçı idi, uzun müddət Almaniyada və İranda işləmişdi. Bir gün dedi:

– Gəl, gedək o tarixi tapıntını mənə göstər.

Yəqin bunu Rza Məmmədov ona deyibmiş. Birlikdə Məhəmməd Əmin Rəsulzadənin qəbrini ziyarətə gedib üstünə gül dəstəsi qoyduq. Yolda mənə dedi:

– Azad, səndən xahiş edirəm, Bakı turistlərini buraya gətirmə, xoşagəlməzliklərdən yaxa qurtara bilməyəcəksən. Əslində, mən burada elə bir qəbahət görmürəm. Amma…".

Azad müəllim bu barədə çox sakit bir tonda danışaraq deyərdi ki, onun dediklərinə əməl etməyə çalışsam da bu, hər dəfə alınmırdı...

"Respublikamızdan Ankaraya bir qrup ziyalı gəlmişdi. Süleyman Rüstəm də onların arasında idi. Elə birinci axşam bizim evin qonağı oldu və məndən xahiş etdi ki, onu Məhəmməd Əmin Rəsulzadənin məzarı üstünə aparım. Əlbəttə, mən imtina etməyə çalışdım. Qayıtdı ki:

– Fikrin nədir, istəyirsən, Bakıya qayıdanda məni doğma Novxanı kəndimə buraxmasınlar?

"Davranış" qaydasını pozmalı oldum, onu "Əsri qəbiristanlığı"na apardım. Uzun müddət yaşarmış gözünü silə-silə lal-dinməz başdaşının yanında oturdu. Xeyli sonra öyrəndim ki, onlar bir-birilərini yaxşı tanıyırlarmış".

## "Bosfor üzərində qağayılar"

Azad müəllimin yazı coğrafiyasında dünya xəritəsinin hansı məkanları yoxdur? Bir az bəlağətli desək, o, öz oxucusunu Antarktidadan başqa, bütün dünyanı gəzdirir. Bu yol Avstriya, Macarıstan, Çexoslovakiya, Böyük Britaniya, Yunanıstan, İraq, Pakistan, İndoneziya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Amerika Birləşmiş Ştatları, Fransa, İtaliya, Hindistan, Filippin, Vyetnam, Kubadan... keçir. Bir qismi "Bosfor üzərində qağayılar" kitabında toplanmış həmin yazılarda Azad müəllimin dərin müşahidə qabilliyyətinin, hadisələrə müdaxilə şəristəsinin, ümumuyyətlə, əsl jurnalist peşəkarlığını görürsən. Müəllif fikirlərinə – "Bu yazılar çoğrafi və tarixi teraktlar deyil. Mən jurnalistəm, gəzdiyim ölkələr, adamlar haqqında gördüklərimi, şahid olduqlarımı yazdım" deyimi ilə aydınlıq gətirir.

Kitabı vərəqlədikcə ürəyimdən keçən bir suala da cavab axtarıram: Görəsən, Azad müəllim dünyanın ən böyük ölkələri haqqında yazılardan ibarət olan bu toplulu niyə "Bosfor üzərində qağayılar" adlandırıb? Hər halda, bu sual, ola bilsin ki, müəllifə heç vaxt verilməyib və "Ön söz"də də onun cavabını görmürük. Amma ağlıma gələn bir hiss var ki, Azad müəllim bu kitabı tərtib edəndə Fransa, Amerika, İndeneziya və sair xatirələri sırasında qardaş Türkiyəyə verdiyi önəmin və sevginin yeri bambaşqa olmuşdur. Zərrə qədər şübhə etmirəm ki, kitabın belə adlandırılması məhz bu duyğulardan doğur.

Kitabın "Bosfor üzərində qağayılar" adlanan bölümündə Türkiyənin Atatürk zamanından sonrakı keşməkeşli "dərbələr tarixinin" umdə bir hissəsini oxucuya təqdim edir. Kitabın bir sovet jurnalisti tərəfindən yazıldığı hiss edilsə də, burada Türkiyəyə bəzən açıq, bəzən də gizli bir bağlılığın və sevginin duyğusal nişanələrini görürük. Təbii ki, ayrı cür də mümkün deyildi və milli kadr olan Azad Şərifovdan sovet quruluşunun ruhuna uyğun olmayan yazı tələb etmək də təkcə sadəlövhlük yox, həm də insafsızlıq olardı.

## Erməni yalanlarına qarşı...

Azad Şərifov 1980-ci illərin axırlarında "Azərinform" Dövlət Agentliyinin baş direktoru təyin edilir. Onun rəhbərliyi dövründə Azərbaycan jurnalistləri həm Ermənistan və Rusiya KİV-ləri, həm də xarici mətbuat tərəfindən cəlb edildikləri informasiya müharibəsinə qoşulurlar. Ermənilərin ölkəmiz və xalqımız haqqında yaydığı yalanlara qarşı mübarizənin önündə "Azərinform" və onun baş direktoru gedirdi. O dövrün qəzetlərini ötəri vərəqləmək də bəs edir ki, Azad müəllimin ağıllı mühakimələri, ən müxtəlif dairələrə, o cümlədən İttifaq rəhbərliyinə səriştəli, arqumentli cavabları ilə tanış olasan. Hətta cəsarətlə demək olar ki, o vaxt erməni vandalizminin və terrorunun iç üzünü açıb ortaya qoyan ən dəyərli yazıların və təqdimatların altında Azad Şərifovun imzası dururdu.

Azad Şərifov bu agentlikdə işlədiyi dörd ilə yaxın dövrdə 250-dən çox məqalə, təkzib, replika, felyeton və başqa materiallar dərc etdirmişdir. Onun rəhbərliyi ilə Azərbaycan, rus və ingilis dillərində erməni terrorizmini ifşa edən kitablar və fotoalbomlar hazırlanmışlar. 1992-ci ilə kimi "Azərinform"un baş direktoru, sonra isə siyasi icmalçı vəzifələrində çalışmış, "Mahnı qəlblərə yol açdı", "Nuxa", "Mavi gəminin kapitanı", "Elan olunmamış müharibə – Azərbaycan əhalisinə qarşı erməni soyqırımı", "Erməni terrorizmi", "İnformasiya blokadasının yarılması" və s. kitabları ilə ictimaiyyətin diqqət mərkəzində olmuşdur.

Dörd çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, ədəbi-ictimai fəaliyyəti Qırmızı Əmək Bayrağı, iki dəfə "Şərəf Nişanı" ordenləri ilə dəyərləndirilmişdir. "Əməkdar jurnalist" fəxri adını almışdır. Təbiətən təvazökar, saxta təkəbbürdən uzaq bir insan olan Azad Şərifov 2009-cu ilin dekabrında 79 yaşında vəfat etmişdir.

***Namiq QƏDİMOĞLU,***
***"Xalq qəzeti"***